Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 78-84**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **с. 78-84**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 78-84**

UOT 78.071.5:37.015.3

Z.F.Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: zulfiyyeliyeva@gmail.com

AZƏRBAYCAN BƏSTƏKARLARININ UŞAQLAR ÜÇÜN YAZILMIŞ ƏSƏRLƏRİNDƏ VƏTƏNPƏRVƏRLİK İDEYASININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

https://doi.org/10.30546/170899876.101.01.2026.78

Açar sözlər: *vətənpərvərlik, uşaq musiqisi, Azərbaycan bəstəkarları, musiqi tərbiyəsi, milli-mənəvi dəyərlər, pedaqoji xüsusiyyətlər, milli musiqi irsi*

Azərbaycan bəstəkarlarının uşaqlar üçün yazdıqları musiqi əsərlərində vətənpərvərlik ideyası həm bədii ifadə vasitələri, həm də pedaqoji məzmun baxımından mühüm yer tutur. Bu mahnılarda melodik sadəlik, ritmik aydınlıq, milli intonasiya xüsusiyyətləri və poetik mətnlə musiqinin vəhdəti uşaqların yaş səviyyəsinə uyğun şəkildə vətən, torpaq, bayraq, birlik və qəhrəmanlıq kimi anlayışları aydın ifadə edir. Belə bədii quruluş uşaqların estetik zövqünün formalaşmasına, emosional yaddaşının zənginləşməsinə və milli kimlik şüurunun möhkəmlənməsinə kömək edir. Musiqi dərslərində bu mahnılardan istifadə edilməsi şagirdlərin marağını artırır, onların musiqi qabiliyyətlərinin inkişafına və biliklərinin dərinləşməsinə şərait yaradır. Beləliklə, Azərbaycan bəstəkarlarının uşaq musiqisi milli irsin qorunmasında və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır və cəmiyyət üçün dəyərli mənəvi əsas yaradır, bu prosesdə xüsusi əhəmiyyət daşıyır.

З.Ф.Алиева

ПЕДАГОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ИДЕИ ПАТРИОТИЗМА В ДЕТСКИХ ПРОИЗВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

Ключевые слова: *патриотизм, детская музыка, азербайджанские композиторы, музыкальное воспитание, национально-культурные ценности, педагогические особенности, национальное музыкальное наследие*

В музыкальных произведениях, написанных азербайджанскими композиторами для детей, идея патриотизма занимает важное место как с точки зрения художественных средств выражения, так и педагогического содержания. В этих песнях мелодическая простота, ритмическая ясность, национальные интонационные особенности и единство поэтического текста и музыки в соответствии с возрастным уровнем детей ярко выражают такие понятия, как Родина, земля, флаг, единство и героизм. Такая художественная структура способствует формированию у детей эстетического вкуса, обогащению их эмоциональной памяти и укреплению чувства национальной идентичности. Использование этих песен на уроках музыки повышает интерес учащихся, создаёт условия для развития их музыкальных способностей и углубления знаний. Таким образом, детская музыка азербайджанских композиторов играет важную роль в сохранении национального наследия и воспитании молодого поколения в духе патриотизма, создавая ценную нравственную основу общества и имея в этом процессе особое значение.

Z.F.Aliyeva

PEDAGOGICAL FEATURES OF THE IDEA OF PATRIOTISM IN CHILDREN'S WORKS BY AZERBAIJANI COMPOSERS

Keywords: *patriotism, children's music, Azerbaijani composers, music education, national-cultural values, pedagogical features, national musical heritage*

In musical works written by Azerbaijani composers for children, the idea of patriotism occupies an important place both in terms of artistic expression and pedagogical content. In these songs, melodic simplicity, rhythmic clarity, features of national intonation, and the unity of poetic text with music clearly express the concepts of homeland, land, flag, unity, and heroism in accordance with the age level of children. Such an artistic structure contributes to the formation of children's aesthetic taste, enriches their emotional memory, and strengthens their sense of national identity. The use of these songs in music lessons increases students' interest, creates conditions for the development of their musical abilities, and deepens their knowledge. Thus, children's music by Azerbaijani composers plays an important role in preserving national heritage and educating the younger generation in the spirit of patriotism, creating a valuable moral foundation for society, and having special significance in this process.

Vətənpərvərlik insan həyatında ən vacib dəyərlərdən biridir. O, hər bir fərdin doğulduğu torpağa, milli kimliyinə, mədəniyyətinə və tarixi irsinə bağlılığını ifadə edir. Vətən sevgisi yalnız böyüklər üçün deyil, uşaqların şəxsiyyətinin formalaşmasında da mühüm rol oynayır. Uşaqlıq dövrü insanın emosional və mənəvi təməlini qoyduğu bir mərhələdir; bu mərhələdə aşılanan vətənpərvərlik hissi gələcəkdə onların cəmiyyətə faydalı, məsuliyyətli və milli dəyərlərə bağlı vətəndaş kimi yetişməsinə xidmət edir. Azərbaycan bəstəkarlarının uşaqlar üçün yazdığı vətənpərvərlik mahnıları milli musiqi irsinin daşıyıcısı olmaqla yanaşı, gələcək nəsillərin mənəvi-estetik tərbiyəsində mühüm rol oynayır. Məktəblilərdə bu əsərlərə meyl və marağın yaradılması, musiqi dərslərinin sinifdənkənar fəaliyyətlərlə əlaqələndirilməsi, onların bacarıq, bilik və estetik tərbiyəsinin inkişaf etdirilməsi müasir təhsil və tərbiyə prosesində əsas vəzifələrdən biridir. Bu baxımdan uşaqlar üçün vətənpərvərlik musiqisinin tədrisi həm təlimin, həm də tərbiyənin effektivliyinin artırılması baxımından xüsusi əhəmiyyət daşıyır və mövzunu aktuallaşdırır.

Alimlər bildirirlər ki, müasir məktəb şagirdində vətənpərvər dəyərlərin formalaşması məqsədyönlü və hədəfə istiqamətlənmiş proses olmalıdır. Bu prosesin əsas məqsədi uşaqları Vətəni qorumağa və ona xidmət etməyə mənəvi və psixoloji cəhətdən hazırlamaqdır. Çünki məhz vətənpərvər dəyərlər əsasında məsuliyyətli, cəsur və mənəvi cəhətdən inkişaf etmiş şəxsiyyət yetişdirmək mümkündür. Uşaqları tərbiyə edərkən onların yaradıcılıq nailiyyətləri və musiqi uğurları üzərində dayanmaq, onları yaradıcı fəaliyyətə yönəltmək lazımdır. Məktəblərdə kiçik siniflərdən başlayaraq "Musiqi" fənninin tədrisi uşaqların estetik zövqünün formalaşmasına, emosional dünyasının zənginləşməsinə, daxili hiss və duyğularını ifadə etmə bacarığının inkişafına mühüm təsir göstərir. Ümumiyyətlə Azərbaycan məktəbinin vəzifələrindən biri də böyüməkdə olan gənc nəslə bilik, bacarıq və vərdişlərlə bərabər onlarda Vətən uğrunda mübarizə hissi, milli qürur hissi, Vətəni qorumaq hissi və s. tərbiyə etməkdir. Musiqi təhsili eyni zamanda uşaqların şəxsiyyət kimi formalaşmasında, milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsində mühüm rol oynayır. Xalq musiqisi, folklor nümunələri və milli musiqi irsi ilə tanışlıq uşaqlarda Vətənə sevgi, tarixə və mədəni irsə hörmət hissinin yaranmasına zəmin yaradır. Məhz buna görə də müasir dövrdə musiqi məktəblərinin təhsil-tərbiyə fəaliyyətində əsas vurğular vətənpərvərlik və mənəvi tərbiyənin gücləndirilməsinə yönəlmişdir. Musiqi təhsili vasitəsilə uşaqların yaradıcı fəaliyyətə cəlb edilməsi, onların fərdi qabiliyyətlərinin inkişaf etdirilməsi və sosial cəhətdən fəal vətəndaş kimi formalaşdırılması aktual pedaqoji vəzifə kimi qarşıda durur.

Pedaqoji təcrübə göstərir ki, müasir uşaqlar əvvəlki dövrdə yaranan uşaq mahnılarına bir o qədər də maraq göstərmirlər. Müasir uşağları fikirləri, duyğuları, düşüncələri, həyata baxışları, zövqləri fərqlidir. Təbii ki, müasir uşağın zövqünü, düşüncəsini, maraqlarını cəlb etmək üçün onların ruhuna uyğun mahnılar

öyrədilməlidir. Belə olduğu halda musiqi müəllimi Venn diaqramı, İnsert, BİBÖ kimi müasir təlim metodlardan, qruplarla və cütlərlə iş formalarından, noutbukdan, proyektordan və s. istifadə edərək məktəblilərin marağını həmin mahnılara cəlb etməlidir. Bundan başqa müasir dövrdə uşaq mahnılarının radio və televiziyada, internetdə, sosial şəbəkədə geniş təqdim olunmasına böyük ehtiyac var. Azərbaycan bəstəkarlarının uşaq mahnılarının təbliği və təşviqinə təlim-tərbiyə prosesində daha geniş yer verilməlidir.

Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, R.Hacıyev, R.Şəfəq, Ağabacı Rzayeva, Soltan Hacıbəyov, Səid Rüstəmov, Tofiq Quliyev, O.Rəcəbov, O.Zülfüqarov, Vasif Adıgözəlov və digər görkəmli Azərbaycan bəstəkarlarının müxtəlif yaşlı uşaqlar üçün nəzərdə tutulan mahnıları bütün dövrlər üçün aktualdır. Azərbaycan bəstəkarlarının keçmiş sovet məkanında yaranmış, gözəl melodiya və zəngin ritmlərə malik uşaq mahnılarının bəzi hallarda sözlərinin dəyişdirilərək, müasir dövrə uyğun poetik mətnlə tədris prosesində istifadə edilməsi məqsədəuyğundur. Məsələn, Üzeyir Hacıbəyli tərəfindən bəstələnmiş "Bayram günü" mahnısı uşaqların gündəlik həyatında sevinc və birlik hisslərini oyadır, melodik sadəliyi ilə onların səs imkanlarına uyğunlaşdırılıb. S.Rüstəmovun "Xəzər" mahnısı isə milli təbiət obrazları vasitəsilə Vətən sevgisini aşılayır, ritmik ifadələri uşaqların musiqi fəaliyyətinə aktiv cəlb olunmasını təmin edir. Fikrət Əmirovun "Bahar gəlir" mahnısı melodik ritmlərin təbii axışı və xalq musiqisi intonasiyalarının istifadəsi ilə uşaqlarda vətənə sevgi və təbiətə bağlılıq hisslərini inkişaf etdirir. Mahnı sözləri Vətən anlayışını ana, torpaq, yurd, bayraq, birlik və qəhrəmanlıq obrazları vasitəsilə uşaqların yaş xüsusiyyətlərinə uyğun şəkildə təqdim edir. Məsələn, O.Zülfüqarovun musiqisi və T.Elçinin sözləri ilə yazılmış "Gözəl Vətən" mahnısı şagirdlərdə milli mənsubiyyət və doğma torpağa bağlılıq hisslərini oyadır. T.Quliyevin musiqisi və R.Hüseynovun sözləri ilə "Vətən marşı" isə daha ciddi və qəhrəmanlıq obrazlı ifadə vasitəsilə uşaqlarda vətənpərvərlik və kollektiv məsuliyyət duyğusunu formalaşdırır. Bu mahnılarda söz və musiqinin vəhdəti uşaqların yalnız ifa bacarıqlarını deyil, həm də emosional qavrayışını inkişaf etdirir.

Məktəblilərdə Azərbaycan bəstəkarlarının mahnılarına meyl və marağın yaradılmasında hər şeydən əvvəl bir sıra pedaqoji və psixoloji məsələlərin dərsdə nəzərə alınması zəruridir. Müasir dövrdə məktəbdə pedaqoji prosesin təşkilində pedaqoji prosesin tamlığı (təlimin öyrədici, inkişafetdirici, tərbiyəedici xarakterinin təmin olunması); təlimdə bərabər imkanların yaradılması (bütün şagirdlərə eyni təlim şəraitinin yaradılması); şagirdyönümlülük (tədris prosesinin şagirdin maraq və tələbatlarının ödənilməsinə, potensial imkanlarının inkişafına yönəldilməsi); inkişafyönümlülük (şagirdlərin idraki fəallığının izlənilib təhlil olunması, inkişaf səviyyəsinin tənzimlənməsi); fəaliyyətin stimullaşdırılması (şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi və həvəsləndirilməsi); dəstəkləyici mühitin yaradılması kimi prinsiplər nəzərə

alınmalıdır. Ümumtəhsil məktəbləri üçün eksperimental musiqi proqramlarının, dərsliklərin müəllifi, məktəblilərin musiqi tərbiyəsi və musiqi inkişafının səmərəli təşkilində xüsusi xidmətləri olan professor O.Rəcəbov "Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası" adlı kitabında düzgün olaraq göstərir ki, repertuarı ele secmək lazımdır ki, hər bir yeni əsər sinfin xor kollektivinə bu və ya digər oxumaq, musiqi qavrama vərdişləri aşılamaq imkanı versin, xor ifaçılığının cətinliklərini aradan qaldırmağa kömək etsin.

"Uşaq repertuarının düzgün seçilməsi və musiqi materialının şagirdlərin yaş xüsusiyyətlərinə uyğunlaşdırılması musiqi təliminin əsas şərtlərindən hesab olunur" [4, s. 120].

Azərbaycan bəstəkarlarının bir çox uşaq mahnıları ümumtəhsil məktəbləri üçün musiqi dərsliklərinə daxil edilmişdir: musiqisi O.Zülfüqarovun, sözləri T.Elçinin "Gözəl Vətən", musiqisi S.Rüstəmovun, sözləri M.Seyidzadənin "Xəzər", musiqisi F.Əmirovun, sözləri Z.Cabbarzadənin "Bahar gəlir", musiqisi T.Quliyevin, sözləri R.Hüseynovun "Vətən marşı", musiqisi S.Rüstəmovun, sözləri S.Vurğunun "Yaşa, Azərbaycan", musiqisi R.Hacıyevin, sözləri Ə.Əlibəylinin "Azərbaycanım", musiqisi O.Zülfüqarovun, sözləri H.Ziyanın "Əzizsən, Vətən" mahnılar mövzu və janr baxımından rəngarəng əsərlərdir. Şagirdlərin davamlı tərbiyəsi vətənpərvər işin təhsil müəssisəsində effektivliyinin əsas şərtlərini müəyyən edir: müəllimlərin peşəkarlığı və yüksək ideoloji inam səviyyəsi. Effektiv nəticə əldə etmək üçün məktəb pedaqoji kollektivi şagirdlərdə vətənpərvər yönümlərin formalaşdırılması üçün tam sistem yaratmalıdır.

Bu mövzuda F.Hidayətova "Musiqi və Vətəndaşlıq tərbiyəsi" adlı monoqrafiyasının "İbtidai siniflərdə musiqi vasitəsilə hərbi vətənpərvərlik tərbiyəsinin məzmunu və imkanları" adlı bölmədə müəllif belə yazır: "Hərbi vətənpərvərlik tərbiyəsi sisteminin inkişafı müstəqillik əldə etmiş ölkəmizin, onun dövlətinin qorunmasının tarixi zərurətindən irəli gəlir. Bu sistem, əvvəla kompleks xarakter daşıyır, yəni insanların vətənpərvərlik hislərinin formalaşdırılması ölkəmizdə olan bütün təhsil müəssisələrinin əsas vəzifəsidir. İkincisi, bu tərbiyə sistemi daima hərəkətdə və inkişafda olmalıdır, belə ki, ölkəmizin hətta bir qarış torpağı da xalqımızın mənəvi sərvətidir. Üçüncüsü, bu sistem insan şəxsiyyətinin tam şəkildə formalaşmasına istiqamətləndiyi üçün, xalqın və ordunun vahidliyinin ən yaxşı ənənələrinə əsaslanıb" [7, s. 32].

Ümumtəhsil məktəblərinin pedaqoji kollektivi üçün əsas vəzifə şagirdlərə Vətənə sevgi aşılanması, onları dərsdənkənar fəaliyyətlərin hazırlanması və keçirilməsinə cəlb etməkdir. Bu, onların vətənpərvərlik, vətəndaşlıq, tarixi yaddaş və sosial məsuliyyət hisslərinin inkişafına, həmçinin milli şüurun əsaslarının formalaşmasına xidmət edəcək. Vətənpərvər tərbiyə məqsədinə çatmaq üçün məktəblərdə tədris edilən "Musiqi" dərsləri aşağıdakı əsas vəzifələri yerinə yetirir:

- Ölkəsinin musiqi tarixi və milli folklorunu öyrənmək;
- Vətənə sevgi və qürur hissini formalaşdırmaq, onu qorumağa hazır

olmaq;

- Uşaqlar və yeniyetmələrdə müharibə və əmək veteranlarına, Vətənini qoruyan şəhidlərin ailələrinə, yaşlı insanlara hörmət, mərhəmət və həmrəylik hisslərinin inkişafı;

Təlim-tərbiyə, tədris zamanı müasir musiqi təlim prinsiplərinin gözlənilməsi, öyrədiləcək materialın əvvəlcədən planlaşdırılmış sistem üzrə tədrisi olduqca vacibdir. Hər bir dərsin planı əvvəlcədən tərtib edilməli, müəllimin seçdikləri musiqi nümunələri yüksək bədii səviyyəyə, təlim-tərbiyə məsələlərinə, uşaqların yaş xüsusiyyətlərinə və qavrama qabiliyyətlərinə uyğun olmalıdır. Musiqi dərsinin sinifdənkənar işlərlə əlaqələndirilməsi məktəblilərin dərsdə mənimsədikləri bacarıq və vərdişlərin möhkəmlənməsinə, qabiliyyətlərinin inkişafına və biliklərinin genişlənməsinə, dərinləşməsinə şərait yaradır, onların estetik tərbiyəsini daha da zənginləşdirir və inkişaf etdirir. Azərbaycan bəstəkarların mahnıları məktəblilərin mənəvi aləminin zənginləşməsinə, dünyagörüşünün formalaşmasına böyük təsir göstərir, uşaqların musiqi zövqünün formalaşmasında əhəmiyyətli rol oynayır. Beləliklə, Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaqlar üçün yazılmış mahnılar geniş yer tutur. Azərbaycan bəstəkarlarının uşaq mahnılarının mövzusu çox rəngarəngdir. Azərbaycan xalq musiqisinin intonasiya xüsusiyyətlərindən istifadə bəstəkarlara milli musiqi obrazının yaradılmasına imkan verir və bu cəhət mahnıların məktəblilərə emosional təsir gücünü daha da artırır. Azərbaycan bəstəkarlarının Vətən və doğma yurdun gözəllikləri haqqında, tarixi günlər, sülh haqqında, dostluq, qəhrəmanlıq, əmək, idman mövzusunda mahnılarından uşaqların musiqi tərbiyəsi və musiqi inkişafında musiqi təliminin əsas prinsiplərinə (tərbiyəedici təlim, müvafiqlik, ardıcıllıq və s.) uyğun istifadə edilməsi məktəblilərin nəinki musiqi-estetik, həmçinin, əxlaqi-mənəvi, əmək, fiziki, ekoloji tərbiyəsinə, əqli inkişafına xidmət edir.

Mövzunun aktuallığı: Uşaqlar üçün yazılmış vətənpərvərlik mövzusunda musiqi müasir pedaqoji nəzəriyyədə həm tərbiyəedici, həm də estetik təlim vasitəsi kimi qəbul olunur. Musiqi uşaqların psixoloji, emosional və estetik inkişafına təsir edir, milli kimlik və Vətənə bağlılıq hisslərini gücləndirir. Psixoloji araşdırmalar göstərir ki, uşaqlıqda qazanılan emosional təəssüratlar uzunmüddətli olur və davranış və dünyagörüşünə təsir göstərir. Müasir dövrdə uşaqların maraqları və zövqləri sürətlə dəyişdiyi üçün vətənpərvərlik mövzulu musiqinin məqsədyönlü tədrisi xüsusilə aktualdır. Musiqi təhsili onları yaradıcı fəaliyyətə cəlb edir, fərdi qabiliyyətlərini inkişaf etdirir və məsuliyyətli, milli-mənəvi dəyərlərə bağlı vətəndaş kimi formalaşdırır.

Nəticə. Beləliklə, Azərbaycan bəstəkarlarının uşaqlar üçün yazılmış vətənpərvərlik mövzulu musiqi əsərləri uşaqların estetik zövqünün formalaşmasında, milli-mənəvi dəyərlərə bağlılığının güclənməsində və Vətənə sevgi hissinin inkişafında mühüm rol oynayır. Bu mahnılar musiqi dərslərində

düzgün seçildikdə və müasir təlim metodları ilə tədris olunduqda şagirdlərin musiqiyə marağını artırır, onların emosional və yaradıcı inkişafına müsbət təsir göstərir. Buna görə də bu əsərlərin musiqi tədrisində sistemli şəkildə istifadə olunması uşaqların vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Dadaşova M. Musiqi müəlliminin hazırlığının metodikası (dərs vəsaiti). Bakı, Zaman-3, 2010, 255 s.
2. Məmmədova İ. Musiqi pedaqogikası. Bakı, Beynalxalq universitet nəşriyyatı və poliqrafiya mərkəzi, 2009, 214 s.
3. Qurbanəliyeva S. Şəxsiyyət və musiqi. Bakı, Adiloğlu, 2010, 160 s.
4. Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. Bakı, Mütərcim, 2010, 131 s.
5. Qədimova J. Musiqinin fənninin tədrisi metodikası. Bakı, 2021, 323 s.
6. Kamilova N. Ümumtəhsil məktəb şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsində musiqinin rolu. Bakı, Zərdabi Nəşr, 2022, 208 s.
7. Hidayətova F.Ş. "Musiqi və vətəndaşlıq tərbiyəsi" Bakı, Şirvan nəşr, 2009, 89 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqalənin çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.